# Zink Sintetik Parlaq

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Zink Sintetik Parlaq yüksək keyfiyyətli, son qat alkid qətran əsaslı parlaq boyadır.

### İstifadə olunacaq səthlər

Zink Sintetik Parlaq taxta və dəmir səthlər üçün nəzərdə tutulub. İstifadəsi asandır. Səthə rahat yayılır və fırça izi saxlamır. Nəm, günəş, zərbə və s. kimi xarici amillərə qarşı yüksək müqavimət göstərir.

### Çəkilən qat qalınlığı və nəzəri yayılma sahəsi

| | Ən az | Ən çox |
|---|---|---|
| **Çəkilən qat qalınlığı, quru (µm)** | 30 | 40 |
| **Çəkilən qat qalınlığı, yaş (µm)** | 75 | 100 |
| **Nəzəri yayılma sahəsi ($m^2$/l)** | 10 | 13 |

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Universal rəng pastaları ilə rənglənə bilər |
| **Kütləcə qatı maddə miqdarı (kütlə %)** | 55±3 (Rəngə görə dəyişə bilər) |
| **Sıxlığı (gr/$sm^3$)** | 1.00±3 (Rəngə görə dəyişə bilər) |
| **Özlülüyü** | 100±5 |
| **Parlaqlıq** | Parlaq |

### Boya sərfiyatı

Səth düzgünlüğü və tətbiq üsulu ilə əlaqəli olaraq tək qat 1 kq 12-15 $m^2$ sahə boyana bilər. Sərfiyyata boyanacaq -səthin nahamarlığı və məsaməliliyi, eləcə də rənglənmə üsulu və şərtləri təsir edir.

### Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Metal səthlər isə təmizlənib Zink Sintetik Antipas ilə astarlandıqdan sonra Zink Sintetik Sonqat Parlaq istifadə edilir. Zink Sintetik Parlaq boya fırça və rulo ilə tətbiq olunduqda 15-20 %, boya püskürdücü ilə tətbiq olunduqda isə 20-25 % nisbətində Penguin Sintetik Tiner ilə incəldilməlidir. Yaxşıca qarışdırılmalı və iki qat olaraq istifadə edilməlidir. Qatlar arası gözləmə müddəti mühit temperaturundan asılı olaraq 6-8 saatdır.

### İstifadə üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Havasız tapança və ya konvensiyalı tapança istifadə oluna bilər |
| **Fırça** | Uyğundur |
| **Rulo** | Uyğundur |

### Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

"CMT Group MMC
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Sintetik Parlaq

## Texniki Məlumat Səhifəsi

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

| **Havanın tempraturu** | **10°C** | **23°C** | **40°C** |
|---|---|---|---|
| **Üst quruma** | 10 saat | 5 saat | 3 saat |
| **Tam (sərt) quruma** | 30 saat | 15 saat | 9 saat |
| **İkinci qatın vurulması, ən az** | 30 saat | 15 saat | 9 saat |

### Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Birbaşa günəş işığı düşməyən 5-35°C-lik mühitdə, açılmamış orijinal qablarında 3 il saxlana bilər.

### Qablaşdırılma şəkli

0.75 lt, 2.5 lt və 15 lt-lik dəmir qablarda istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır

### Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

***Qeyd:*** *"CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

---

**"CMT Group MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

CMT
CASPI - MARINE TECHNOLOGIES